*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 26 oktyabr 2019-cu il | № 83 (2400) | Qiymәti 30 qəpik


*Ön xətdən reportaj*

## Qələbə ruhlu Azərbaycan əsgəri



*Yol gedirik... Dünənki buludlu havadan əsər-əlamət yoxdu. Günəş göy qübbəsində öz yerini tutub. Payız günəşi ətrafı qızdırmağa can atır, ancaq gücü çatmır. Günəşli bir payız günündə müqəddəs məkanla - Qarabağımızla, eyni zamanda, xalqımızın güvənc yeri olan, torpaqlarımızın keşiyini çəkən Azərbaycan əsgəri ilə görüşə tələsirik. Bu gün sevincli olsam da, nədənsə fikrim dalğındır. Xəyalım məni əlimdən tutub Qarabağa aparır. Özüm Qaradağda, ruhum isə Qarabağdadı. Hayqırtılı bir səs ruhumu işğal olunmuş torpaqlara səsləyir. Bəlkə də o səs Qarabağda şəhid olan oğul və qızlarımızın, yurd itkisi ilə barışmayan ataların, Vətən həsrəti çəkən anaların, düşmən gülləsinə tuş gələn körpələrin, torpaqlarını işğaldan azad etməyə can atan Azərbaycan əsgərinin səsidir...*

İnsanın yaşamadığı xatirələri, görmədiyi yerləri xəyal etməsi çox qəribədir, sanki möcüzədir. Bu gün sanki təbiətin min bir gözəlliyinə şərik çıxan Şuşanı dolandım. Şuşa xatirimdə hələ də öz ətrini saxlayan yaz çiçəyinə bənzəyir, ömürlük yadımdan çıxan deyil. O gözəllik, o müqəddəslik, o paklıq, o təmizlik, bir də Cıdır düzünün əsrarəngiz gözəlliyi, Laçın yaylaqları gəldi gözümün önünə...

Bu hisslərlə cəbhə xəttində yerləşən "N" hərbi hissəsinə çatırıq. Hər dəfə olduğu kimi, Azərbaycan Ordusunun zabiti, giziri, əsgəri ilə görüşmək qürurvericidir. Hərbi hissədə bizi zabit Eldəniz İsmayılov qarşılayır. Zabit bildirir ki, bu gün ordumuz çox güclüdür. "1993-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan ordu quruculuğu bu gün ölkəmizin dinamik inkişafına uyğun olaraq, özünün yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Azərbaycan ictimaiyyəti bunun əyani təsdiqini ötən il Silahlı Qüvvələrin yaradılmasının 100 illiyi münasibəti ilə keçirilən möhtəşəm hərbi paradda gördü. Paradda Azərbaycan Ordusunun müxtəlif qoşun növlərini təmsil edən hərbçilərin, müasir hərbi texnikanın nümunəvi keçidi, hərbi təyyarələrimizin nümayiş etdirdikləri yüksək pilotajlıq bacarıqları Vətənini sevən hər kəsdə qürur və fəxarət hissi oyatdı. Hər kəs bir daha əmin oldu ki, Azərbaycanın hər an düşmənə layiqli cavab verə bilməyə qadir olan güclü, qüdrətli və modern ordusu, hərbi arsenalında isə ən müasir, dünyanın qabaqcıl ölkələrinin ordularının istifadə etdikləri texnikalar var".

"Ona görə hər kəs inanır ki, Azərbaycan əsgərinin sayəsində tezliklə haqqımız olduğuna sahib olacağıq, sərgərləri sərhədlər əvəz edəcək...", - deyə zabitin söylədiklərinə həmfikir oluram. Zabit fikrimin təsdiqi olaraq bildirir ki, Azərbaycan Ordusu işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. "Azərbaycan xalqı, Azərbaycan dövləti tezliklə bunun şahidi olacaq. Dövlət rəhbərliyi bu məsələni sülh yolu ilə həll etmək istəyir. Əgər bu mümkün olmasa, biz Ali Baş Komandanımızın rəhbərliyi ilə tarix yazacağıq. Aprel döyüşləri, Günnüt zəfəri də sübut etdi ki, tezliklə xalqın həsrətinə son qoyulacaq".

(Ardı 5-ci səhifədə)



"Qarabağ Azərbaycandır!" devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib

3-cü səhifədə



Müharibə veteranına "Hərbi xidmətlərə görə" medalı təqdim olunub

4-cü səhifədə




Hərbçilərin Dünya Oyunlarında güləşçilərimiz iki gümüş medal qazanıb

7-ci səhifədə



Hərbi hissələrdə asudə vaxt səmərəli təşkil olunur

8-ci səhifədə

# Azərbaycanın Müdafiə naziri NATO toplantısında iştirak edəcək

*Oktyabrın 24-də NATO-nun Mənzil-Qərargahında Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına töhfə verən ölkələrin Müdafiə nazirləri səviyyəsində keçiriləcək iclasda iştirak etmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov Brüssel şəhərinə yola düşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər və maraq doğuran bir sıra digər mövzular ətrafında geniş müzakirələr aparılacaq.

Səfər çərçivəsində Müdafiə nazirinin ikitərəfli görüşləri də nəzərdə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 23-də Ağdam rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru apardılar.

# Əlahiddə Ümumqoşun Orduda beynəlxalq silahlara nəzarət inspeksiyası keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Muxtar Respublikasında növbəti dəfə beynəlxalq silahlara nəzarət inspeksiyası keçirilib.*

Norveç Krallığının rəhbərlik etdiyi və tərkibində Danimarka, Lüksemburq, Niderland, İspaniya və ABŞ-dan olan nümayəndələrin də yer aldığı 9 nəfərdən ibarət beynəlxalq inspeksiya qrupu tərəfindən Əlahiddə Ümumqoşun Orduda "Elan olunmuş yer"in inspeksiyası və qiymətləndirməsi aparılıb.

"Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə" çərçivəsində döyüş tanklarının, zirehli döyüş maşınlarının, artilleriya və minaatan qurğularının sayı yoxlanılıb, Təlim-Tədris Mərkəzinə və hərbi hissələrin ərazisindəki digər binalara baxış olub.

Yoxlamanın sonunda beynəlxalq inspeksiya qrupuna və hərbi hissələrin nümayəndələrinə xatirə hədiyyələri təqdim edilib. Səfər çərçivəsində qonaqlar muxtar respublikanın gəzməli-görməli yerlərində, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

# Əlahiddə Ümumqoşun Orduda toplantı

Əlahiddə Ümumqoşun Orduda müxtəlif kateqoriyalı hərbi qulluqçularla təlim toplantıları keçirilib. Toplantılarda müxtəlif atıcı silahlardan və tapançadan praktiki atışlar icra edilib, əl qumbaralarından atış çalışmaları yerinə yetirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, motoatıcı bölük və taqım komandirləri ilə keçirilən toplantı zamanı taqımın döyüş atışlı taktiki təliminin planlanması, hazırlanması, keçirilməsi, təlim zamanı şəxsi heyətin və atəşin idarə edilməsi metodikası praktiki olaraq göstərilib. Təlimdə yaranmış mürəkkəb şəraitdə döyüş tapşırığı vaxtında və dəqiq yerinə yetirilərək şərti düşmənə etibarlı atəş zərbələri endirilib.

Komandirlərin peşəkar idarəetmə, şəxsi heyətin isə yüksək səhra bacarığı təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunmasında mühüm rol oynayıb.

# Hərbi hissədə seminar

Müdafiə Nazirliyi ilə Dövlət Təhlükəsizlik Xidmətinin birgə fəaliyyət planına uyğun olaraq, hərbi hissələrdən birində "Xarici xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyəti" və "Dini ekstremizmə qarşı mübarizə və informasiya təhlükəsizliyi" mövzularında seminar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edənlər keçirilən seminarın şəxsi heyətin maarifləndirilməsində böyük rol oynayacağını qeyd ediblər.

Seminar "Heç vaxt gec deyil" sənədli filminin nümayişi ilə başa çatıb.



# Hərbi dənizçilərlə Hərbi Prokurorluq nümayəndələrinin görüşü

Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında imzalanan 2019-cu il üçün birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hərbi qulluqçulara qarşılıqlı davranış qaydaları və münasibətlərin nizamnamənin tələblərinə uyğun qurulması barədə brifinq təqdim olunub.

Bakı Hərbi Prokurorunun böyük köməkçisi 1-ci dərəcəli hüquqşünas Tural Salmanov şəxsi heyətlə "Hərbi kollektivin möhkəmləndirilməsində matrosun rolu" mövzusunda söhbət aparıb.

Sonda görüş iştirakçıları mövzu ilə əlaqəli aktual məsələləri müzakirə edib və bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**25 oktyabr 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Kəngərli, Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Qoşulmama Hərəkatının Gənclər Sammiti çox önəmli təşəbbüsdür"

Bakıda keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammiti çox önəmli təşəbbüsdür. Bu təşəbbüs nəinki Venesuela, həmçinin Qoşulmama Hərəkatına digər üzv ölkələr tərəfindən də yüksək qiymətləndirilir. İnanıram ki, bu tədbir həm də Azərbaycan Hökumətinin beynəlxalq aləmdə gənclərin rolunu inkişaf etdirmək istiqamətində gördüyü işin yüksək qiymətləndirilməsinin sübutudur.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammitində iştirak edən Venesuelanın BMT-dəki daimi nümayəndəsi Joaquin Perez Ayestaran deyib.

O qeyd edib ki, bu platforma təkcə siyasi problemlərin deyil, həm də dünya ölkələrinin üzləşdiyi sosial və iqtisadi problemlərin həlli istiqamətində müzakirələr aparmağa və onların həlli yollarını tapmağa kömək edir. Hər bir ölkədə cəmiyyət həyatında gənclərin rolu böyükdür. "İnanırıq ki, həyata keçirdiyi uğurlu xarici siyasət sayəsində Azərbaycan Qoşulmama Hərəkatının əsas məqsədlərinə nail olmaq istiqamətində, Hərəkatın fəaliyyətinin təkmilləşdirilməsi prosesində irəliləyişə nail olmaq üçün bütün səylərini səfərbər edəcək və bu platformaya yeni elementlərin gətirilməsində əhəmiyyətli rol oynayacaq", - deyə Venesuela nümayəndəsi əlavə edib.

# “Qarabağ Azərbaycandır!”

## devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib

*Oktyabrın 23-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Qarabağ Azərbaycandır!" devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib. UNEC və "Səs" Media Qrupunun birgə təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə ümummilli lider Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.*



Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunda və oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında faşistləri qəhrəman kimi qələmə verən, cəllad və satqın "Qaregin Nidje" ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arturyana heykəl qoyan Ermənistanın siyasi-hərbi rəhbərliyinə mesaj verərək Paşinyanı yerində oturtduğu anları əks etdirən videofraqmentlər nümayiş edilib.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbir barədə məlumat verib.

Tədbirdə çıxış edən UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradov bildirib: "Elə bir Azərbaycan vətəndaşı tapılmaz ki, respublikamızın ərazi bütövlüyünün bərpası və torpaqlarımızın işğaldan azad edilməsi üçün canından keçməyə hazır olmasın. Ölkəmizin bütün vətəndaşları bu məqsədə nail olmaq üçün Ali Baş Komandanın hər bir əmrinə hazırdır. Çünki Qarabağın işğaldan azad edilməsi təkcə Azərbaycan dövlətinin deyil, bu torpaqda yaşayan hər kəsin, eləcə də biz müəllimlərin, tələbələrin, universitetimizdə çalışan hər bir texniki işçinin, əməkdaşın da arzusu, amalı, problemidir".

Rektor qeyd edib ki, doğma Qarabağın geri qaytarılması məramı xalqımızı Azərbaycan dövlətinin və Prezidentinin ətrafında sıx birləşdirən başlıca dəyərə, milli birliyə və vətəndaş həmrəyliyinə çevirib. UNEC-in 20 minlik kollektivi də həmişə bu məqsədə xidmət edib. “Biz xalqımızın ümummilli liderı Heydər Əliyevin ideyalarına sadiq olduğumuzu bu gün bir daha bəyan edir və Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək milli birlik və vətəndaş həmrəyliyi nümayiş etdiririk. "Qarabağ Azərbaycandır!" çağırışı hər bir UNEC-çinin də şüarına çevrilib və hər birimizin fəaliyyət istiqamətidir.”

Tədbirin təşkilinə görə minnətdarlığını bildirən Milli Məclis sədrinin müavini Bahar Muradova qeyd edib ki, "Qarabağ Azərbaycandır!" şüarı son günlər ölkəmizdə milli ideya səviyyəsinə yüksəlib. “Biz bu gün üçrəngli bayraqların işığında sabahımıza yönələn fəaliyyətimizin əsas istiqamətlərindən biri kimi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını və bu ərazidə yaşamalı olan, lakin Azərbaycanın və dünyanın müxtəlif regionlarında çətin şəraitdə yaşayan hər bir soydaşımızın doğma evlərinə, yurduna qayıdışını təmin etməliyik. Bu təminatı yaratmaq, bu hədəfi reallaşdırmaq üçün Azərbaycan dövləti hələ ulu öndər Heydər Əliyevin dövründən lazım olan ilkin addımları atmışdır.

1994-cü ilin Horadiz əməliyyatında Horadiz və ətraf 22 kəndin işğaldan azad olunması Ermənistana və onun havadarlarına Azərbaycan ilə artıq silah gücünə danışmağın mümkün olmadığını sübut etdi. Ötən müddətdə Azərbaycan həm hərbi, həm siyasi, həm də iqtisadi qüdrətini artırmaqla, düşmən üzərində növbəti ardıcıl qələbələr qazandı və Qarabağın Azərbaycanın əzəli və tarixi ərazisi olduğunu, Azərbaycanın öz torpaqlarında ikinci Ermənistan dövlətinin yaradılmasına imkan verməyəcəyini bütün dünyaya qəbul etdirdi. Bu gün bütün dünya bu həqiqəti anlayır ki, Qarabağ heç zaman Ermənistanın ola bilməz, Qarabağ heç zaman müstəqil ola bilməz, Qarabağ Azərbaycanın tərkib hissəsidir, əzəli və əbədi torpağıdır", - deyə B.Muradova bildirib.

B.Muradova xüsusi vurğulayıb ki, 2016-cı ilin Aprel döyüşlərində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Lələtəpə və digər istiqamətlərdə qazanılan qələbə müasir Azərbaycan Ordusunun regionun ən güclü ordusu və kiçik bir zərbə ilə böyük qələbələr qazanmaq imkanında olduğunu göstərməklə yanaşı, Ermənistan ordusu haqqında yaranmış mifi puç elədi. 2016-cı ildən ötən müddətdə qazanılmış hərbi qələbənin üzərinə Prezident İlham Əliyev iki böyük diplomatik qələbəni əlavə etdi. “Biz bir daha dünyaya "Qarabağ Azərbaycandır" nidası ilə səsləndik. Bu, həqiqətən, həm Ermənistanı, həm də onun havadarlarını Azərbaycanın bugünkü gücü ilə hesablaşmaq məcburiyyətində olduğunu bir daha dərk etməyə gətirib çıxartdı. Bizi isə bu vəzifəni qısa müddətdə yerinə yetirməyə, öz gücümüzə inanmağa, hədəflərimizə doğru inamla getməyə ruhlandırdı. "Qarabağ Azərbaycandır" və nida işarəsi"




bəyanatının arxasında hər bir gəncimiz bir nida işarəsi kimi hazır olmalıdır. Bizim hər birimiz bu nidanın arxasındayıq və elə onun özüyük. Prezident İlham Əliyevin həm hərbi, həm də diplomatik uğurlarla qarşımıza çıxardığı bu hədəfə doğru addımlamalıyıq. Hamımız ümumi Azərbaycan naminə bütöv hərəkatın tərkib hissəsi olmalı, Azərbaycan Ordusunu dəstəkləməli, ölkəmizin iqtisadi inkişafını, ictimai-siyasi sabitliyini qorumalıyıq. Bu gün "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarı daha ucadan səslənməlidir.”



"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasının sessiyasındakı qətiyyətli çıxışında səsləndirdiyi "Qarabağ - tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin artıq bir şüara çevrildiyini vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyevin həmin bəyanatı Azərbaycan Ordusunda böyük ruh yüksəkliyi ilə qarşılanıb və ordumuz qarşısında yeni tapşırıqlar qoyub.

Döyüş mövqeyindən - Lələtəpədən birbaşa tədbirə gələn hərbi qulluqçu, Aprel döyüşlərinin iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli gizir Tahir Misirxanovun "Prezident İlham Əliyev Qarabağ Azərbaycandır nidasını qoydu. Ali Baş Komandanın rəhbərliyi altında “Qarabağ Azərbaycandır!” çağırışına Azərbaycan əsgəri öz layiqli töhfəsini verməyə, xalqımızı qələbə müjdələri ilə sevindirməyə hər an hazırdır. Hər birinizə Vətən, torpaq, bayraq və Azərbaycan sevgisi arzulayıram" fikirləri alqışlarla qarşılanıb.

Sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, “Səma” rəqs ansamblının solistlərinin iştirakı ilə "Qarabağ Azərbaycandır!", “Biz gedirik Qarabağa!”, “Hər əmrinə hazırıq, cənab Ali Baş Komandan!” adlı ədəbi-bədii-xoreoqrafik kompozisiyalar nümayiş etdirilib.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# “Qarabağ Azərbaycandır!”

## devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib

(Əvvəli 3-cü səhifədə)

Sonda UNEC-in kollektivi adından Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə müraciət qəbul olunub.

Müraciətdə deyilir:

Möhtərəm Prezident!

Cənab Ali Baş Komandan!

Biz, UNEC-in 20 min nəfərlik kollektivi Sizə səmimi salamlarımızı yetirərək, Azərbaycan naminə möhtəşəm xidmətlərinizdə bundan sonra da yorulmaz fəaliyyət arzulayırıq. Siz xalqımızın ümummilli lideri Heydər Əliyevin özü qədər inandığı, gələcəyinə böyük ümidlər bəslədiyi və bu ümidləri layiqincə doğruldan müdrik Prezidentimiz, qətiyyətli Ali Baş Komandanımızsınız. Müasir müstəqil Azərbaycanımızın qurucusu Ulu Öndərimizdirsə, onun daha da inkişaf edərək, dünyanın ən gözəl, sabitlik və əmin-amanlıq içərisində yaşayan dövlətlərindən birinə çevrilməsi məhz Sizin adınızla bağlıdır. Bütün xalqımız kimi UNEC-in kollektivi də Sizi sevir, məqsədyönlü daxili və xarici siyasətinizi bir nəfər kimi dəstəkləyir.



Möhtərəm Prezident!

3 oktyabr 2019-cu ildə Sizin Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik toplantısındakı qətiyyətli və mərdliyinin cəsarətli çıxışınız bütün dünyanı heyrətləndirdi və bütün xalqımız kimi UNEC kollektivinin də böyük ruh yüksəkliyinə səbəb oldu. Bir daha əmin olduq ki, torpaqlarımız uzun müddət düşmən tapdağında qala bilməz.

"Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır.

Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Cənab Ali Baş Komandan!

Ermənistan siyasi-hərbi rəhbərliyinin sərsəm bəyanatlarına tutarlı cavabınız çox cəsarətli, qətiyyətli mesaj idi. Belə bir kəsərli cavabla yalnız xalqımızı, millətimizi daim firavan, xoşbəxt gələcəyə inamla aparan, bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da müstəsna xidmətləri olan Ali Baş Komandanımız cənab İlham Əliyev çıxış edə bilərdi və çıxış edərək düşmənin sərsəm açıqlamalarına yerindəcə cavab verdi: "Qarabağ Azərbaycandır və nida işarəsi!"



Biz UNEC-çilər milli hərəkata çevrilən ideya ətrafında, bir bayraq altında, dövlətimizin başçısının rəhbərliyi altında daha sıx birləşir və hər bir əmrinizə hazır olduğumuzu bəyan edirik!

Müstəqilliyimiz kimi, birliyimiz, həmrəyliyimiz bundan sonra da əbədi, sarsılmaz və dönməz olacaqdır!

Qeyd edək ki, tədbirin ssenari müəllifi və quruluşçu rejissoru, Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidir.

# Müharibə veteranına “Hərbi xidmətlərə görə” medalı təqdim olunub

*Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları və xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən təltif edilmiş birinci Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan kiçik çavuş Elçin Əjdər oğlu Vəliyevə "Hərbi xidmətlərə görə" medalı təqdim olunub.*

Müdafiə Nazirliyi rəsmilərinin, Ağcabədi rayon İcra Hakimiyyəti rəhbərliyinin, qeyri-hökumət təşkilatları və hərbi hissənin nümayəndələrinin, eləcə də müharibə veteranlarının, gənclərin, məktəblilərin iştirak etdikləri tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad edilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ölkəmizin müstəqilliyi tarixindən, bu müstəqilliyin əbədi, sarsılmaz və dönməz olmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin daha da möhkəmləndirilməsindən, ordu quruculuğunda qazanılmış nailiyyətlərdən bəhs edib.

Qeyd olunub ki, ölkəmizin iqtisadi yüksəlişi, vətəndaşların firavan yaşaması üçün uğurlu dövlət siyasəti aparılır. "Sözün həqiqi mənasında, Azərbaycan müstəqillik yollarında inamla irəliləyir. Azərbaycan Ordusu bu gün dünyanın güclü ordularından sırasında yer alıb. Hərbi qulluqçuların sosial müdafiəsi istiqamətində mühüm irəliləyişlər var. Şəhid ailələrinə, müharibədə sağlamlığını itirən döyüşçülərə, həmçinin müharibə veteranlarına dövlət qayğısı yüksək səviyyədədir. Məhz bugünkü tədbir də ölkə rəhbərliyinin keçmiş döyüşçüyə diqqət və qayğısının bariz nümunəsidir", - Ş.Məmmədov deyib.

Bütün bunlara görə ölkə rəhbərliyinə, şəxsən möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə dərin minnətdarlığını bildirən rayon icra hakimiyyətinin başçısı bir daha bəyan edib ki, bütün xalqımız kimi ağcabədililər də Qarabağ uğrunda mübarizədə Ali Baş Komandanın hər bir əmrinə müntəzirdir.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan əsgərinin bu gün ölkə rəhbərliyi tərəfindən hər zaman yüksək qiymətləndirilməsindən, həyatını hərbi peşəyə həsr edənlərə xüsusi önəm verildiyindən geniş söhbət açıb. O, bildirib ki, uzun illər keçməsinə baxmayaraq, bir qrup keçmiş döyüşçü Prezidentin Sərəncamına əsasən döyüş orden və medalları ilə təltif olunublar. Onlardan biri də Ağcabədi rayonunun Hüsülü kəndindən olan müharibə veteranı kiçik çavuş Elçin Vəliyevdir.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, ehtiyatda olan kiçik çavuş E.Vəliyev 1992-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Yeni yaranmaqda olan Azərbaycan Ordusunun ilk döyüşçülərindəndir. Laçın, Qubadlı, Ağdərə, Tərtər uğrunda döyüşlərdə mahir topçu kimi tanınıb. Düşmənə texnika və canlı qüvvə sarıdan xeyli itki verib.

Ondan yaşca böyük olan qardaşları Mahir və Vüqar da birinci Qarabağ müharibəsinin iştirakçılarıdırlar. Onlar 1996-cı ilə qədər Azərbaycan Ordusunun sıralarında cəbhə bölgələrində xidmət ediblər və bu gün də Qarabağ uğrunda döyüşlərə hazırdırlar.

Polkovnik A.Qurbani deyib: "Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusunun xidmətləri dövlətimizin başçısının, həmçinin Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Hər kəs layiq olduğu qiyməti alır. Vətənə, dövlətə sədaqətli xidmət heç vaxt mükafatsız qalmır. Dəliqanlı bir gənc ikən döyüşlərə atılan və 27 il öncə layiq görüldüyü medalı üç övladı ilə birlikdə almağa gələn E.Vəliyev üçün bəlkə də bu gün onun həyatının ən xoş anıdır. Odur ki, Vətən vətənpərvər övladlarının xatirəsini həmişə uca tutur, onları heç vaxt unutmur. Məhz elə bugünkü tədbir özü də bir örnəkdir, nümunədir.

Müharibə veteranına "Hərbi xidmətlərə görə" medalı təqdim olunduqdan sonra Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edən E.Vəliyev bildirib ki, mən və mənim silahdaşlarım döyüşlərə mükafat üçün deyil, Vətənimizi, ana-bacımızı, gələcəyimizi qorumaq, düşmən hücumlarının qarşısını almaq üçün getmişdik. Biz ölməkdən qorxmurduq, unudulmaqdan qorxurduq. İllər ötdükdən sonra şəhidlərimizin, onların ailə üzvlərinin, döyüşlərdə sağlamlığını itirənlərin və biz müharibə veteranlarının unudulmadıqlarının bir daha şahidi olduq. Belə bir ölkədə yaşamaq, işləmək həqiqətən böyük xoşbəxtlikdir.

Müharibə veteranı daha sonra əlavə edib ki, bu medalı mən bütün şəhidlərimizə, qazilərimizə möhtərəm Prezidentimizin göstərdiyi ehtiramın əlaməti olaraq qəbul edir və içirəm ki, bundan sonra da nə qədər ömrüm var Vətənimə, dövlətimə sədaqətlə xidmət edəcəyəm.

Bölgənin müdafiəsində dayanan hərbi hissənin zabiti, polkovnik Elşad Əbilov, müharibə veteranının vaxtilə xidmət etdiyi hərbi hissənin zabiti polkovnik-leytenant Xəyyam Şükürov, leytenant Orxan Həsənov və başqaları E.Vəliyevi döyüş medalı alması münasibətilə təbrik edib və onu şəxsi heyətlə görüşə dəvət ediblər.

Məktəblilərin təqdim etdikləri "Azərbaycan Bayrağı" adlı ədəbi kompozisiya ilə tədbir başa çatıb.

(Əvvəli 1-ci səhifədə)

# Qələbə ruhlu Azərbaycan əsgəri



Söhbətimizin bu yerində dağlardan əsən meh sanki fikrimizin təsdiqi olur... Əsən meh səngərin barıt qoxulu havasını, oğullarımızın Vətən sevgisini, igidlərimizin nərəsini, hayqırtısını ətrafa yayır. Əsgərlərimizin dili ilə demək istəyir ki, biz torpaqlarımızı Vətən etmək üçün canımızı veririk. Əsrlərdir ata-babalarımızın qanları bahasına əldə edərək bizə verdikləri torpaqlarımızın dəyərini bilirik və unutmuruq ki, torpaqlarımızın hər qarışında şəhid qanı var.

Səngərdə baş leytenant Elgün Mustafazadənin də dedikləri mehin bizə gətirdiyi xəbərin təsdiqi olur. "Bu gün ölkəmiz müharibə şəraitində yaşadığından hər birimiz rütbəmizdən və vəzifəmizdən asılı olmayaraq özümüzü Azərbaycan Ordusunun əsgəri hesab edirik. Hər birimiz üçün bayrağımız da, torpağımız da şanlı və dəyərlidir. Unutmuruq ki, qanımızın son damlasına qədər vuruşmaq bizim həm atalarımıza, həm də bu torpağa olan borcumuzdur."

Baş leytenant Əli Camalzadə qeyd edir ki, düşmənlə təmas xəttində yerləşən bölmənin şəxsi heyəti üçün əsas amil Vətəni qorumaqdır. "Qətiyyətlə deyə bilərəm ki, əsgərlərimiz onlara tapşırılan mövqeni sayıqlıqla qoruyurlar. Çox yaxşı bilirlər ki, müharibə şəraitində olan ölkənin ordusunun əsgəri mərd və qorxmaz olmalı, Vətənini sayıqlıqla qorumalıdır".

Müşahidə postunda keşik çəkən əsgər Sadiq Mehvalıyev ön xətdə xidmət etməsindən şərəf duyduğunu bildirir: "Ön xətdə xidmət etmək şərəflidi, həm də hər zaman təhlükə altında olmaq deməkdir. Bu bizi narahat etmir. Çünki hər zaman ehtiyatı əldən verməməyə çalışırıq. İçimizdə o qədər Vətən, torpaq sevgisi var ki, bu yolda ölüm də bizi qorxutmur.

Əsgər Cavid Hüseynovun dediyi fikirlər hər kəsə duyğulu anlar yaşadır. "Deyirlər ki, nəyi çox istəsən, o arzun mütləq həyata keçər. Mən Qarabağı görməyi, özü də azad görməyi çox istəyirəm. İstəyirəm Qarabağın azadlığında mənim də bir əsgər kimi payım olsun. Çünki valideynlərimin o yerlərdə neçə-neçə yaşanmayan xatirələri, ayaq basmadığı çəmənliklər qalıb. Tarixi Qələbəni yaşamadan, valideynlərimin, özümün və ən əsası xalqımızın xəyallarını gerçəkləşdirmədən heç nə bitə bilməz…"

Əsgər Cəmaləddin Xəlilov səngər yoldaşının fikrinin təsdiqi olaraq deyir: "Müstəqil Azərbaycan, Vətənimiz, yurdumuz ifadəsi hamımız üçün əzizdir. Buna görə də dövlətimizin müstəqilliyini əbədi etmək üçün hər kəs əlindən gələni edir, Vətən torpağına göz dikənlərə qarşı mübarizə aparırıq. Vətənə xidmət etmək bir vətəndaş kimi bizim müqəddəs borcumuzdur. Bu şərəfli borcu məsuliyyətlə yerinə yetirmək üçün üzərimizə düşən tapşırıqları, vəzifələri vaxtında və düzgün yerinə yetirir, xidmətimizlə digər yoldaşlarımıza da nümunə olmağa çalışırıq".

Masallı rayonundan olan əsgər Coşqun İbrahimov vurğulayır ki, xidmət etdiyi müddətdə əsgər kimi üzərinə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışıb. "Qarşıda gördüyünüz dağın o tərəfi də tarixi Azərbaycan torpaqlarıdır. Bütün tarixi torpaqlarımızın geri qaytarılmasının arzusundayam. Demək olar ki, çox arzularım həyata keçib. İnanıram ki, bu arzum da tezliklə həyata keçəcək".

"Vətən nəyin bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, ana dediyimiz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, millətimizin üzərində yaşadığı torpaqdır. Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur", - deyə əsgər Nurlan Qocalıyev əsgər yoldaşının sözünü təsdiqləyir.

Əsgər Zaur Məmmədov isə bildirir ki, hər xalqa öz ölkəsinin sahibi olmaq, özünün milli dövlətini qurmaq, ən ali dəyərlərini özündə ehtiva edən bayrağını yaşadığı ölkəsinin ərazisində dalğalandırmaq xoşbəxtliyi nəsib olmur. “Bu baxımdan Azərbaycan xalqı dünyanın ən xoşbəxt xalqlarından biridir. Çünki Azərbaycan xalqının bu gün müstəqil dövləti, möhtəşəm bayrağı var. O bayraq ki, müqəddəs Azərbaycan torpağının səmasında dalğalanır. O bayraq ki, onun əzəmətlə dalğalanması üçün yüzlərlə insan canını fəda edib. O bayraq ki, bu gün hərbi-strateji yüksəklik olan Lələtəpədə dalğalanmaqla düşmənə gözdağı olub. O bayraq ki, Cocuq Mərcanlı ilə başlayan Böyük Qayıdışın xəbərçisinə çevrilib.”

Söylənilən bu fikirlərin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş bacarığı, Qələbə ruhu dayanır. Qələbə ruhlu igid oğullarımız demək istəyirlər ki, gec və ya tez mütləq işğal altında olan torpaqlarımızı azad edəcəyik, şəhidlərimizin qanını yerdə qoymayacağıq, düşmənin layiqli cəzasını verəcəyik və üçrəngli bayrağımızı azad, müstəqil Qarabağına qovuşan Azərbaycanın səmasında dalğalandıracağıq!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Gənc zabitlərimiz*

# Şərəfli yolun astanasında




Leytenant Oruc Əsgərlinin bu peşəyə olan sevgisi 15 yaşı olarkən ona hərbi mundiri daşımaq sevincini yaşadıb. 2012-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini rabitə ixtisası üzrə müvəffəqiyyətlə bitirib. "Leytenant" rütbəsini bir neçə aydır çiyinlərində daşıyan zabitimizlə həmsöhbət olduq.

- Əmim Əli Əsgərov müharibə veteranıdır, - gənc zabit dedi. - 1992-ci ildə Qarabağ döyüşlərinin iştirakçısı olub. Uşaqlığımdan mənə döyüşlərdən söz açıb, ermənilərin xalqımızın başına açdığı faciələrdən danışıb. Elə o vaxtdan məndə düşmənə qarşı nifrət hissi oyanıb. Bir dəfə atamla parkda gəzərkən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını gördüm. Hər dəfə onları gördükcə gələcəkdə hərbçi olmaq arzum daha da böyüyürdü. Qərarımı valideynlərimə dedim. Seçimimə hamıdan çox sevinən atam oldu. Bu gün çox xoşbəxtəm ki, arzuma çatmışam. Çiyinlərimdə "leytenant" rütbəsi, müqəddəs vəzifəni yerinə yetirirəm - Vətəni qoruyuram!

Danışdıqca simasında əks olunan sevinc və həyəcanı, qürurlu baxışları gözlərindən sezilən gənc zabitimiz peşəsinə sonsuz sevgi ilə bağlandığını büruzə verirdi.

Leytenant düşüncələrinə sarılıb dedi ki, məzun olduğu günü heç vaxt unutmayacaq. "Mərasimdən sonra təntənəli marşla valideynlərimizin qarşısından keçdik. Onların qürurlu baxışlarını gördükcə seçdiyim peşənin müqəddəsliyini dərk edir, daşıdığım formayla bir daha qürur duyurdum. Tədbirdən sonra bizi məzuniyyətə göndərdilər. Evə gəldiyimdə gördüyüm mənzərə məni xoşbəxt etdi. Bütün tanışlarım, həmçinin mənimlə həmişə fəxr etdiyini deyən babam Oruc Əsgərov da bizə toplaşanlar arasında idi. Babamın gedərkən mənə dediyi "komandirlərinin sözündən çıxma, nizamnamələrin tələblərini pozma, Vətəninə layiqli zabit ol, xalqına şərəflə xidmət et" sözlərini yaddaşıma həkk edərək Azərbaycan Ordusuna layiqli zabit olacağıma söz verdim.

Seçdiyi peşənin çətinliyi ilə yanaşı, şərəfli olduğunu deyən leytenant O.Əsgərli Vətəni qorumağın hamımızın borcu olduğunu bildirdi. "Həyatda asan peşə yoxdur. Əgər bir işdə uğur qazanmaq, seçdiyin sənətin peşəkarı olmaq istəyirsənsə, gərək hər çətinliyinə də dözəsən. Bəli, hərb peşəsi çətin və məsuliyyətli peşədir. Hərbi forma daşıyan hər kəs bu peşənin çətinliyini dərindən dərk edir. Hansı şəraitdə xidmət etməyimizdən asılı olmayaraq bizlər peşəmizi sevirik. Bu peşənin müqəddəsliyi ondadır ki, xalq sənə güvənir, inanır, arxalanır. Ona görə də istənilən şəraitdə, ölkəmizin hər bir bölgəsində torpaqlarımızı qorumaq borcumuzdur."

Orucun gənc zabit olmasına baxmayaraq, kifayət qədər bacarıqlı və savadlı olduğu hiss olunurdu. Tabeliyində olan əsgərlərin nizam-intizamı, səliqə-sahmanı onun öz vəzifəsinin öhdəsindən bacarıqla gəldiyini deməyə əsas verir.

- Təcrübəli zabitlərimiz kapitan Tapdıq İbrahimov, kapitan Novruz İsmayılov və başqaları daim mənə köməklik göstərir, öz təcrübələrini bölüşürlər, - deyə müsahibim bildirdi. - Əsgərlərimizi Vətənimizə sədaqətlə xidmət edən döyüşçülər kimi yetişdirmək üçün əlimizdən gələni əsirgəmirik. Əsas vəzifəmiz tabeliyimizdəki şəxsi heyəti bacarıqlı, peşəkar bir döyüşçü kimi formalaşdırmaqdır. Aprel döyüşlərindəki qələbəmiz xalqın orduya güvənc hissini daha da artırdı. Bu gün hər birimiz Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq və Böyük Qələbəni qazanacağımıza tam əminik.

**Kapitan**
**Məhəmməd NƏSİRLİ**

# Bölmələrin qış mövsümünə hazırlığı yoxlanılır



*Müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin bir qrup zabiti cəbhəboyu zonada yerləşən, dağlıq və sərt iqlim şəraitində tapşırıqları icra edən bölmələrin qış mövsümünə hazırlığını yoxlayır.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-mayor Qədir Nəsibovun rəhbərliyi ilə bölmələrin qışa hazırlığının vəziyyəti, şəxsi heyətin qış mövsümü normalarına uyğun təminatı, əsgər yataqxanalarının və müxtəlif təyinatlı digər hərbi obyektlərin isitmə sistemləri ilə təchiz edilməsi yoxlanılır.

Silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələrin mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təchiz edilməsi, həmçinin onlara planlı şəkildə qulluq göstərilməsinin səviyyəsi də nəzarətdə saxlanılır.

# Azərbaycan Ordusunda hərbi psixoloqların müsabiqəsi keçirilib



*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi tərəfindən qoşun növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində "İlin ən yaxşı psixoloqu" müsabiqəsinin ilkin mərhələsi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqə hərbi psixoloqların ixtisas hazırlığının yüksəldilməsi, psixoloji işə dair üsul və vasitələrin düzgün tətbiqi, peşəkar vərdişlərinin inkişaf etdirilməsi məqsədi ilə keçirilir.

Birinci mərhələnin nəticələrinə əsasən qaliblər müəyyən edilib.

# Ukraynadan olan Azərbaycanın Milli Qəhrəmanının xatirəsi anılıb

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölkəmizin Ukraynadakı səfirliyinin hərbi attaşe aparatının nümayəndələri Xarkov vilayətinin Zimiyov şəhərində Azərbaycanın Milli Qəhrəmanı Ruslan Aleksandroviç Polovinkanın ailəsinə baş çəkib, onun xatirəsinə həsr olunmuş anım mərasimində iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi polkovnik İlqar Ağayev, baş köməkçi polkovnik-leytenant Emil Allahverdiyev və şəhidin ailə üzvləri iştirak ediblər.

Əvvəlcə Milli Qəhrəmanın yaşadığı evdə onun xatirəsi anılıb, keçdiyi həyat yolundan danışılıb. Sonra Milli Qəhrəmanın dəfn olunduğu Zimiyov şəhər qəbiristanlığında məzarı önündə anım tədbiri keçirilib. R.Polovinkanın "Azərbaycanın Milli Qəhrəmanı" sözləri yazılmış və səkkiz guşəli ulduz təsvir olunmuş məzarı üzərinə Müdafiə Nazirliyi adından qızıl gül səbəti qoyulub, ailəsinə Müdafiə nazirinin şəxsi hədiyyələri təqdim edilib.

Polkovnik İ.Ağayev çıxış edərək bildirib ki, iki xalqın övladı olan R.Polovinka şəhidliyi ilə xalqlarımızın dostluğunun əbədi və sarsılmaz olduğunu bir daha sübut edib. Azərbaycan və Ukrayna xalqlarının tarixi dostluq ənənələrinin uğurla davam etdiyini vurğulayan İ.Ağayev bildirib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Milli Qəhrəmanlarımıza, şəhidlərimizin ailələrinə yüksək dövlət qayğısı mövcuddur. Bu qayğının bariz nümunələrindən biri də şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsidir. Artıq bu müavinət R.Polovinkanın ailəsinin hesabına da köçürülüb. Bundan başqa Azərbaycan dövlətinin sifarişi ilə hazırda Milli Qəhrəmanımız haqqında sənədli film də çəkilir.

Milli Qəhrəmanın anası Qalina İvanovna oğlunun xatirəsinə göstərilən yüksək diqqətə görə Azərbaycan Respublikasının Prezidentinə, xalqımıza və Müdafiə nazirinə minnətdarlığını bildirib. Şəhidin atası Aleksandr Qriqoryeviç daim Azərbaycan dövlətinin qayğısını hiss etdiklərini və bundan məmnun qaldıqlarını vurğulayıb.

Xatırladaq ki, Qarabağ müharibəsində bir çox hərbi əməliyyatların fəal iştirakçısı olmuş leytenant R.Polovinka Qubadlı, Laçın və Ağdərə uğrunda gedən döyüşlərdə xüsusi fərqlənib. 1992-ci ilin avqustun 6-da R.Polovinka Mi-24 helikopterinin heyəti ilə birlikdə Ağdərə rayonu ərazisində gedən ağır döyüşlərdə düşmənin xeyli sayda zirehli texnika və canlı qüvvəsini məhv edib. Lakin bu istiqamətdə etdiyi dördüncü uçuşu zamanı helikopter düşmən tərəfindən raketlə vurulub. O, komandiri Zakir Məcidovun əmrinə baxmayaraq, komandirini tərk etməyib, son ana qədər aviasiya vasitəsini xilas etməyə çalışıb. Təəssüflər olsun ki, R.Polovinka uçuş heyətinin üzvləri ilə birlikdə şəhidlik zirvəsinə ucalıb.



# "BMT ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi məsələləri hər zaman vacib hesab edir"

Birləşmiş Millətlər Təşkilatı ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi məsələləri hər zaman vacib hesab edir. Buna əsaslanaraq BMT beynəlxalq hüququn formalaşması prosesinə öz dəstəyini verib. BMT dünya ölkələrinə müraciət edərək dövlətlərin sərhədlərinin toxunulmazlığı bu prinsipin qorunmasına səsləyir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 24-də ADA Universitetində BMT-nin yaranmasının 74-cü ildönümünə həsr olunan tədbirdə BMT Baş Assambleyasının Prezidenti Ticani Məhəmməd-Bande deyib.

BMT-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnamə qəbul etməsi və bu qətnamələrə əməl edilməməsi məsələsinə münasibət bildirən Ticani Məhəmməd-Bande bildirib ki, BMT öz mövqeyini qəbul olunmuş qətnamələri vasitəsilə nümayiş etdirir. BMT bunu da vacib hesab edir ki, dövlətlərin sərhədləri dəyişdirilməməli, toxunulmaz olaraq qalmalıdır. Biz razılaşma olmadan və hər hansı güc tətbiq etməklə dəyişdirilmiş sərhədləri tanımırıq. Bu baxımdan sərhədlər toxunulmaz olaraq qalmalıdır. Bununla bağlı həm BMT Baş Assambleyasının, həm də Təhlükəsizlik Şurasının mövqeyi var və bu mövqe dəyişməz olaraq qalır. Bu gün elə bir mexanizm olmalıdır ki, bu mexanizmlə mübahisələr öz həllini tapsın, sülh bərqərar olsun. BMT-nin rolu həmin mexanizmə yardım etməkdən ibarətdir.

# "Qoşulmama Hərəkatının Gənclər Sammiti böyük əhəmiyyətə malik bir tədbirdir"

Dünya əhalisinin əhəmiyyətli hissəsini gənclər təşkil etdiyi üçün onların inkişafın bütün mərhələlərində iştirak etməsi çox vacibdir. Bu gün dünyada bir çox münaqişələrlə, yoxsulluq, ekstremizm və terrorizm kimi problemlərlə qarşılaşırıq. Öz gələcəyini idarə etmək və daha yaxşıya doğru dəyişmək istəyən gənclər çoxdur. Bu baxımdan, Azərbaycanda ilk dəfə olaraq gənclərin iştirakı ilə belə bir tədbirin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammitinin iştirakçısı, Afrika Gənclər Təşkilatının sədri Bhonqolvethu Sonti deyib.

"BMT-nin 2030-cu ilədək Davamlı İnkişaf Məqsədlərinin tam həyata keçirilməsinə 11 illik bir müddətimiz var. Bu isə dünyada gənclərin üzərinə həlledici qərarlar qəbul etmək və ilk növbədə, hərəkətə keçmək kimi böyük məsuliyyət qoyur", - deyə sammit iştirakçısı bildirib.

Bhonqolvethu Sonti Qoşulmama Hərəkatının Gənclər Sammitini Azərbaycanın Hərəkatın inkişafına verdiyi töhfə kimi qiymətləndirib. "Azərbaycan bu cür tədbirlərə ev sahibliyi etməklə həlledici qərarların qəbul edilməsində gənclərin rolunu artırmaq üçün üzərinə götürdüyü bu məsuliyyətli missiyanı uğurla yerinə yetirəcək", - deyə o əlavə edib.

# Şəhid ömrü

Payızdı. Yarpaqlarda, otlarda, buludlarda pərişanlıq sezilir. Rüzgar niyə belədi, görəsən? - bir yerdə qərarlaşanların nizamını pozur, dağıdır, tökür, yaşıllıqları da, yaşılca ümidləri də kövrəldir, incələşdirir, bəzən saraldır da.

Mənim şəhid qardaşım Əbdülməcid, yaxşı bələdsən rüzgarın şıltaqlığına, qərarsızlığına, qətiyyətinə. Amal qardaşlarının arasındasan, ruhunuz sıramızdadı... Mübariz kimi, Raquf kimi, Təbriz kimi...

Əbdülməcid qardaşım, sən ən yüksək məqama üz tutdun, Vətəni qorudun, sonda şəhid oldun. "Bayraqları bayraq yapan üstündəki al qandır", sən də qanını bu qanlara qarışdırdın. Qəhrəmanlar döyüşdə doğulur. Sənin kimi...

Özün yaralıykən yardım edə bilmədiyin digər yoldaşlarının ağrısını son nəfəsində də yaşamısan, düşünürəm. Bu məktəbdə "əla" qiymət almağa, "Vətən" şeirini söyləyib alqışlara qərq olmağa, fərəh qanadlarında uçmağa bənzəyirmi?

4 il oxuduğun Azərbaycan Texniki Universitetini bitirəndə qrup yoldaşlarınla bir yerdə şəklinizi səbirsizliklə gözləyirdin. Qismətin deyilmiş. Tələbə yoldaşların ona neçə dəfə baxıblar. Təəssüf qarışıq qürurla baxıblar. Mən də baxdım - sənin yerinə. Yaraşıqlı idin, nurlu idin. Eşitdim nənən hər dəfə səni soruşur. "Əbdülməcid gəlsin", - deyir, "onu görüm", - deyir. Gizlədiblər nənəndən şəhadətini. Nənən sənin yerə enə bilməyəcək qədər yüksəklərdə olduğunu bilmir. Yaşamaq hüququndan keçdin - Vətənə görə...

Səni gözləyən tək valideynlərin deyilmiş. Səni gözləyən biri də varmış - hamıdan gizlətdiyin, sirr kimi qoruduğun biri. Hər gün gəlib məzarının üzərinə məktub qoyur. Vərəqlərə sənə deyə bilmədiklərini yazır. Bu sətirlərdə həsrət var, hicran var, gələcək illərin də kədər payı var: "Amma mən sağikən də sənin yanında idim, indi də... Sənin şəhidliyin heç nəyi dəyişmir, Məcid...!"

Təsəllin şəkillərindir. "Şair kimi öldü, şəkil kimi soldu", - deyilib. Sən unudulmursan. Sənin Azərbaycan boyda ailən var, anan var. Tarix rəqəmlərlə deyil, zəfərlərlə yazılır. 2016-cı ilin Aprel döyüşlərində tarix yazanların sırasında sən də vardın, 26 yaşında belə gənc qalan manqa komandiri Əbdülməcid Axundov!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

# Hərbçilərin Dünya Oyunlarında güləşçilərimiz iki gümüş medal qazanıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, oktyabrın 23-də daha bir idmançımız güləşin yunan-Roma növündə medal qazanıb. Suriyalı Abdulkərim Əl-Həsən xalça üzərinə çıxmadığı üçün ilk mərhələdən azad olan həmyerlimiz 1/4 finalda fransız Mamadassa Silladan güclü olub. Yarımfinalda dünya və ikiqat Avropa çempionu Artyom Surkovla qarşılaşan M.Rəhmanov Rusiya təmsilçisinə uduzub. Təmsilçimiz bürünc medal uğrunda görüşdə gənclər arasında son dünya çempionatının gümüş medalçısı Şant Xaçaturyanla üz-üzə gəlib. Yunan-Roma güləşçimiz Ermənistan idmançısı ilə prinsipial görüşdən qalib ayrılaraq Dünya Oyunlarında üçüncü yeri tutub.

* * *

Çin Xalq Respublikasında Uxan şəhərində keçirilən Hərbçilərin VII Dünya Oyunlarında MOİK idmançıları komandamızın aktivinə daha iki medal yazdırıb.

Rafiq Hüseynov ilk görüşdə ukraynalı Aleksandr Şişman, dörddəbir finalda cənubi koreyalı Sanqyeok Park, yarımfinalda isə dörd il əvvəl Bakıda keçirilmiş ilk Avropa Oyunlarının finalında uduzduğu rusiyalı Yevgeni Saleyevdən üstün olub. Güləşçimiz finalda macar Viktor Lorintsə uduzaraq yarışı ikinci pillədə başa vurub.

Həsən Əliyev (77 kq) isə səkkizdəbir finalda ermənistanlı Varujan Qriqoryana, dörddəbir finalda ukraynalı Dmitri Pişkova qalib gəlib. Pəhləvanımız yarımfinalda 2017-ci ildə dünya çempionu olmuş serbiyalı Viktor Nemeşə qalib gələrək finala yüksəlib. H.Əliyev gərgin idman mübarizəsi şəraitində keçən final görüşündə iranlı Peyman Poştama məğlub olaraq yarışı ikinci yerdə yekunlaşdırıb.



* * *

Mərkəzi Ordu İdman Klubunun (MOİK) üzvü, boksçumuz Salman Əlizadə (46-49 kq) Çinin Uxan şəhərində keçirilən Hərbçilərin VII Dünya Oyunlarının bürünc medalını qazanıb. S.Əlizadə ilk görüşdə suriyalı Mussin Əl Məsriyə, dörddəbir finalda nepallı Bahadur Teca Deubaya qalib gəlib. Boksçumuz yarımfinalda Hindistan idmançısı Dipaka məğlub olaraq, turniri 3-cü yerdə başa vurub.

Bu, Azərbaycan komandasının turnirdə 6-cı medalıdır.

# İdman arenasında hərbçilərimizin növbəti uğuru

*Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, idman sahəsində də inkişaf dövlətçiliyimizin təşəkkülündə və tərəqqisində misilsiz rol oynamış ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin yürütdüyü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

Vətənimizin müdafiəsində dayanan hərbi qulluqçularımız idmana böyük həvəs və maraq göstərirlər. Döyüş hazırlığı ilə yanaşı, hərbi qulluqçularımızın fiziki cəhətdən möhkəm, güclü və sağlam olmaları onların döyüş qabiliyyətlərini daha da artırır. Ordu sıralarında xidmət edən yüzlərlə hərbçi-idmançı hərbi xidməti ilə yanaşı, idman fəaliyyətini də yüksək səviyyədə davam etdirir. Hərbçilərimiz müxtəlif idman növləri üzrə peşəkar şəkildə məşğul olurlar. Onlar idman arenalarında ordumuzu layiqincə təmsil edir, yeni-yeni uğurlar əldə edirlər.

Hərbçi-idmançılarımızın növbəti uğuru alpaqut idman növü üzrə olub. Ölkəmizdə də sevilən alpaqut idman növü üzrə bu yaxınlarda Azərbaycan kuboku keçirilib. Gərgin və maraqlı mübarizə şəraitində keçən turnirdə ordu sıralarında xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Bəxtiyar Elyasov birinci olub.

Baş əsgər Bəxtiyar Elyasov 18-19 oktyabr tarixlərində Qazax şəhərində keçirilən alpaqut Turan döyüş sənəti üzrə Azərbaycan kubokunun qalibi olub. 75 kq çəkidə tatamiyə çıxan Bəxtiyar rəqibləri üzərində inamlı qələbə qazanaraq kubokun qızıl medalını əldə edib. Bundan əvvəl də dəfələrlə respublika çempionu olan idmançımız bu qələbəsi ilə Dünya Alpaqut Federasiyasının Bakıda keçiriləcək dünya çempionatına vəsiqə qazanıb.

Bu günlərdə redaksiyamızda qonaq olan B.Elyasov əvvəlcə idmanla məşğul olmağa başlamasından, ilk nailiyyətlərindən və bu yolda ona yaxından dəstək olan müəllimindən danışdı. Peşəkar idmançı kimi formalaşmasında müəllimi Elçin Eminovun böyük zəhməti olduğunu qeyd etdi. Bildirdi ki, Elçin Eminov alpaqut idman növü üzrə "Dinamo" idman klubunun baş məşqçisi, dünya, Avropa və dəfələrlə respublika çempionu, Bakıda keçirilən İslam Həmrəyliyi oyunlarının gümüş medalçısıdır. "Yeddi yaşımdan bu idman növü ilə məşğul olmağa başlamışam. Məhz alpaqut idman növünü seçməyimə səbəb yaxın qohumlarımın bu idman növü ilə məşğul olması idi. Məşqçim də yaxın qohumum Elçin olub. Həyatımda ilk yaddaqalan turnir 2005-ci ildə keçirilən respublika çempionatı oldu. Bu çempionatda iştirak etməyə artıq özümü hazır hiss edirdim. Tatamiyə çıxıb bütün qüvvəmi ortaya qoydum və sonda qalib oldum. Bu ilk qələbəm olaraq hər zaman yaddaşımda yaddaqalan gün kimi həkk olundu. Həmin gün həm də gələcək uğurlarımın başlanğıc günü idi."




Gündəlik məşqlərin qələbədə böyük pay sahibi olduğunu deyən Bəxtiyar yarışa həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən hazır olmağın vacibliyini vurğuladı. Onu da qeyd etdi ki, əsl peşəkar idmançı əzmkar, mübariz, dözümlü və özünə inamlı olmalıdır. "Məşqçimizin çox sevdiyim bir şüarı var - məşqdə tökülməyən tər, yarışda göz yaşı olaraq geri qayıdar. Onun bu sözlərini idmana başladığım ilk gündən yaddaşıma yazdım, müsbət nəticələrini də gördüm. Yarışlara hazırlaşarkən rəqiblərini düzgün analiz etmək də vacib şərtdir. Rəqib idmançıya hər zaman hörmətlə yanaşmalı, nə gözündə çox böyütməli, nə də zəif görməlisən. Qələbəyə köklənib sona qədər mübarizə aparmalısan. Fiziki gücündən və taktikandan ağılla istifadə etməlisən. Güc və ağıldan birlikdə düzgün istifadə etməyi bacaranda qalib gəlirsən."

Hərbçimiz qalib olduğu sonuncu turnir haqqında da danışdı. "Artıq bir ildən çoxdur ki, ordu sıralarında xidmət edirəm. Bu günlərdə keçirilən qalibi olduğum alpaqut Turan döyüş sənəti üzrə Azərbaycan Kubok hərbçi kimi iştirak etdiyim ilk yarış oldu. Bu dəfəki qələbələrimin sevinci və həyəcanı bir başqa idi. Çünki əvvəl məndən qalibiyyət gözləyən yalnız məşqçim, ailəm və dostlarım idi. İndi isə hərbçi yoldaşlarım, komandirlərim də var. Artıq mən şanlı ordumuzu təmsil edirəm. Bunun yaşatdığı qürur hissi də qələbəmdə əlavə stimul oldu. Hərbi hissəyə qayıdanda şəxsi heyət məni rəğbətlə qarşıladı, qazandığım uğura görə rəhbərlik mənə fəxri fərman, qiymətli hədiyyələr təqdim etdi. Bu təqdimatlardan çox fərəhləndim. Hər kəsin qürurlu baxışlarını üzərimdə hiss edirdim. Bu yaşadıqlarım növbəti Dünya Alpaqut Federasiyasının Bakıda keçiriləcək dünya çempionatında mənə böyük stimul və dəstək olacaq.

İdmanla peşəkar formada məşğul olmaq üçün ölkəmizdə biz gənclərə hər cür şərait yaradılıb. Hərbi hissəmizdə müasir avadanlıqlarla təchiz olunmuş idman şəhərcikləri mövcuddur. Ordumuza göstərilən bu diqqət və qayğıya, yaradılan yüksək şəraitə görə Ali Baş Komandanımıza minnətdarlığımı bildirirəm. Arzu edirəm ki, tezliklə biz Qarabağımızı işğaldan azad edək. Belə turnirlər Şuşada, Laçında, Kəlbəcərdə, Qubadlıda... təşkil olunsun. Əzəli və əbədi torpaqlarımızda üçrəngli bayrağımız dalğalansın."

Bu gün biz də daha bir hərbçi-idmançımızın qələbəsinə sevinirik. İdman arenalarında idmançılarımızın uğurlarını gördükcə, düşüncələrini dinlədikcə gənclərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığının bir daha şahidi oluruq.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Suriyadan İraqa gətirilən ABŞ hərbçiləri Qətərə və ya Küveytə aparılacaq



Suriyadan İraqa gətirilən amerikalı hərbçilər ölkəni bir ay ərzində tərk edərək Qətərə və ya Küveytə dislokasiya olunacaq.

Bu barədə İraqın Müdafiə naziri Nacah əş-Şamari bildirib. "Suriyadan çıxarılan Amerika qoşunları dörd həftə ərzində İraqı tərk edəcək. Onlar Qətərə və ya Küveytə yollanacaq", - Nacah əş-Şamari belə deyib.

Xatırladaq ki, Pentaqonun rəhbəri Mark Esper İraqa elan olunmamış səfər edib. O, ABŞ qoşunlarının Suriyadan çıxarılması prosesini və bu prosesdə İraqın rolu məsələlərini ölkə rəhbərliyi ilə müzakirə etmək niyyətindədir.

### Rusiya Ermənistana etiraz notası göndərəcək



Rusiyanın ORSIS şirkətinin iştirak etdiyi silah tədarükü üzrə tenderi pozduğuna görə Moskva Yerevana etiraz notası göndərəcək. RIA Novosti agentliyi xəbər verir ki, nota Ermənistanın müdafiə naziri David Tonoyana ünvanlanıb. Agentliyin məlumatına görə, 2019-cu il 22 oktyabr tarixli etiraz notasında deyilir ki, Rusiyanın ORSIS firmasının müraciəti heç bir əsas olmadan rədd edilib və erməni tərəfi onu bu iş üçün uyğun olmayan tədarükçülər siyahısına daxil edib. Sənəddə müdafiə naziri Tonoyanın məsələni araşdırması tələb olunur.

Qeyd olunur ki, hazırda etiraz notası Rusiya Xarici İşlər Nazirliyindədir və yaxın vaxtlarda diplomatik kanallar vasitəsilə Ermənistana göndəriləcək. Agentlik yazır ki, çoxmilyonluq silah tədarükü üzrə tender bu ilin yayında keçirilməli idi. Ermənistan Müdafiə Nazirliyi Rusiya şirkətinin tenderdə iştirakla bağlı müraciətini ləğv edib və bunu ORSIS-in bank təminatını ödəmədiyi ilə əsaslandırıb. Rusiyanın İstintaq Komitəsində bununla bağlı cinayət işi qaldırılıb.

### İraqda İŞİD silahlılarının hücumu nəticəsində iki polis generalı həlak olub



Bağdaddan şimalda İŞİD silahlılarının hücumu nəticəsində İraq federal polisinin iki generalı həlak olub.

Bu barədə Shafaq News portalı ölkənin güc strukturlarındakı mənbələrə istinadən məlumat yayıb. Mənbələrin məlumatlarına əsasən, terrorçuların qurduğu pusquda Federal polisin 4-cü briqadasının komandanı general Əli əl-Lyami öldürülüb. Onunla birlikdə güc strukturunun daha 6 əməkdaşı - döyüş əməliyyatlarına cavabdeh briqada generalı Məhəmməd Alaui və 5 mühafizəçi də həyatını itirib. İraq DİN-in başçısı Yasin əl-Yasiri komandanın ölüm faktını təsdiqləyib.

### Rusiyanın hərbi polisləri Suriyaya gəlib



Kürd separatçılarının Türkiyə sərhədindən uzaqlaşdırılmasına kömək edəcək 300 rusiyalı hərbi polis Suriyaya çatıb.

Rusiya KİV-ləri xəbər verir ki, bu barədə RF Müdafiə Nazirliyi məlumat yayıb. Məlumata görə, Çeçenistandan gətirilən hərbi polis Suriyanın şimal-şərqində əhalinin təhlükəsizliyini təmin edəcək, asayişi qoruyacaq, patrul xidməti aparacaq, silahlı qruplaşmaların Türkiyə-Suriya sərhədindən 30 kilometr uzaqlaşdırılmasına yardım göstərəcək.

Həmçinin Hmeymim aviabazasına hərbi polis üçün "Tiqr" və "Tayfun-U" zirehli avtomobilləri də çatdırılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Asudə vaxt

# Hərbi hissələrdə asudə vaxt səmərəli təşkil olunur

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman kapitan Vahid Rzayev şəxsi heyətin gündəlik fəaliyyəti ilə bağlı söhbət etdi. Zabit bildirdi ki, şəxsi heyətə günün nizam qaydasına uyğun olaraq sıra, döyüş, fiziki, ictimai-siyasi hazırlıq və digər məşğələlər keçirilir.*

Kapitan V.Rzayev qeyd etdi ki, ordumuzun qarşısında qoyulan vəzifələrin, döyüş tapşırıqlarının yerinə yetirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin artırılması istiqamətində tədbirlərin təşkil olunması vacib amillərdən biridir. "Şəxsi heyətin asudə vaxtının da səmərəli təşkil olunduğunu vurğulayan zabit dedi ki, əsgərlərin asudə vaxtlarının düzgün və səmərəli təşkil olunması onların nizam-intizamlarına, vətənpərvərlik ruhunda tərbiyə olunmasına, dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir.

Asudə vaxtın səmərəli təşkili, xalqımızın milli-mənəvi dəyərləri ilə yaxından tanış olması məqsədilə şəxsi heyətin xidmət etdikləri bölgələrdə yerləşən tarixi yerlərə, muzeylərə ekskursiyaları həyata keçirilir. Bir sözlə, şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin artırılması, onların tarixi döyüş ənənələri ruhunda tərbiyə edilməsi, asudə vaxtının səmərəli təşkili və bir çox məsələlər daim diqqət mərkəzindədir. Orduda baş verən yeniliklər və keçirilən tədbirlər haqqında informasiyaları əsgərlərimiz televiziya proqramları və verilişləri vasitəsilə əldə edirlər. Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını təbliğ etmək, gəncləri orduda xidmətə həvəsləndirmək məqsədilə şanlı hərb tariximizi, xalqımızın qəhrəmanlıq nümunələrini tərənnüm edən materiallar hazırlayaraq onlara təqdim edirik."

Zabit onu da əlavə etdi ki, asudə vaxt şəxsi heyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini yüksəltmək üçün əsas vasitədir. "Ona görə də bütün hərbi hissələrdə asudə vaxtı səmərəli təşkil etmək üçün məqsədyönlü işlər görülür. Əsgər yataqxanasında ideoloji otaqlar və istirahət guşələri yaradılır. Belə şərait əsgərlərimizin mənəvi cəhətdən kamilləşməsinə, mədəniyyətinin yüksəlməsinə zəmindir. Asudə vaxt zamanı əsgərlər qəzet və jurnallar oxuyur, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat və digər stolüstü idman oyunları oynayırlar."




Əsgər Mehman Məmmədov asudə vaxtlarını səmərəli keçirmək üçün hərbi hissədə hər cür şərait yaradıldığını vurğuladı. "Hərbi hissəmizdə yaradılan şəraitdən hamımız çox razıyıq. Peşəkar, bacarıqlı və tələbkar komandirlərimiz bizə həm hərbi biliklər öyrədir, həm də daim xüsusi diqqət və qayğı göstərirlər. Bizim üzərimizə düşən vəzifə isə xidmətimizi düzgün təşkil edib, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə atılmağa hazır olmaqdır. Doğma el-obamızı düşməndən tapdağından qısa zamanda azad edəcəyik. Yurdlarından didərgin düşən həmyerlilərimiz yenidən el-obalarına geri dönəcəklər!".

Əsgərlər Orucəli Abbaszadənin, Rəşid Həmidovun, Nəsimi Mənəflinin və başqalarının arasında mehribanlığı, qayğıkeşliyi, səmimiyyəti, Vətən sevgisini hiss etmək, gözlərindəki düşmənə olan qəzəb qığılcımlarını görmək bizlərə xoş hisslər aşıladı. Bir daha əmin olduq ki, Vətənə xidmət edən igid oğullarımız tezliklə düşmən üzərində qələbə qazanaraq, erməni işğalçılarından qisasımızı alacaq, doğma torpaqlarımızı işğaldan azad edəcəklər. O an isə düşmən məğrur əsgərlərimizin gözlərində alovlanan nifrət atəşində yanacaq.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Hərbi texnikalar, silahlar

# "Yars" RS-24 ballistik raketi



Qitələrarası "Yars" RS-24 ballistik raketi mahiyyətcə "Topol-M" RT-2PM2 raket kompleksinin dərin modernləşdirilmiş versiyasıdır. Onun hazırlanmasına 1992-ci ildə Moskvanın Teplotexnika İnstitutunda baş konstruktor Solomatinin rəhbərliyi altında başlanıb. 2007-ci ilin mayında yeni R-24 raketinin sınaq buraxılışı, həmin ilin dekabrında ikinci sınağı keçirilib. Hər iki raket "Plesetski" poliqonundan modernləşdirilmiş "Topol-M" kompleksindən buraxılıb. Sınaq uğurla başa çatıb. 2008-ci ilin əvvəlində raketin üçüncü sınağı da uğurla həyata keçirilib.

"Yars" RS-24 qitələrarası ballistik raketi düşmənin vacib hərbi-sənaye mərkəzlərini məhv etmək üçün nəzərdə tutulub. Onun "Topol-M" RS-12M2-dən fərqi əsas hissəsi və idarəetmə sistemidir.

"Yars" RS-24 raketi üçpilləli, qatıyanacaqlı raketdir. Onun gövdəsi yüksək davamlılığa malik olan kompozit materialdan hazırlanıb. Raketin uçuşu idarəetmə sistemi inersiyalıdır. Lazımi informasiyaları bort hesablama sistemi emal edir, hansı ki, uçuşu korrektə edir. Raketin bütün elektronikası nüvə partlayışının məhvedici faktorlarına qarşı artıq dərəcədə davamlıdır. "Yars"ın naviqasiya sistemi ona yüksək dəqiqliklə hədəfi məhv etməyə imkan verir. Raketin yaşarlılığını təmin etmək üçün onun konstruksiyasında bir çox dəyişikliklər edilib.



Bundan başqa, "Yars" RS-24 ballistik raketi təkmilləşmiş termonüvə təchizatına malikdir. Raketin uçuşunun maksimal uzaqlığı 11-12 kilometr, maksimal start çəkisi 46500-47200 kiloqram, döyüş təchizat blokunun həcmi 0,15, 0,3 mt-dir, əsas hissəsinin çəkisi 1,2-1,3 tondur. Saxlanılma müddətinə 15 il qarantiya verilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## UEFA Avropa Liqası: "Qarabağ" - APOEL oyunu 2:2 hesabı ilə başa çatıb



UEFA Avropa Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin üçüncü turu çərçivəsində oktyabrın 24-də Ağdamın "Qarabağ" komandası Tofiq Bəhramov adına Respublika Stadionunda Kiprin APOEL klubunu qəbul edib.

Görüşün 13-cü dəqiqəsində Dani Kintana baxımlı qolla oyunda hesabı açıb - 1:0. Lakin qarşılaşmanın 29-cu dəqiqəsində qonaqlar standart vəziyyətdən hesabı bərabərləşdirməyə nail olublar. Hava ötürməsini Nikolas İonnau başla dəqiq tamamlayıb - 1:1.

Görüşün 45-ci dəqiqəsində rəqib komandanın futbolçusu Linus Hallenius qapıçı ilə təkbətək mübarizədən qalib ayrılıb - 1:2. Komandalar fasiləyə bu hesabla yollanıblar.

Fasilədən sonra "Qarabağ" matçın 58-ci dəqiqəsində oyunda tarazlığı təmin edib. Dani Kintananın cinah ötürməsindən sonra Ailton Silva dəqiq baş zərbəsi ilə rəqib qapısına yol tapıb - 2:2.

Beləliklə gərgin idman mübarizəsi şəraitində keçən görüş heç-heçə başa çatıb - 2:2.

## Cüdoçumuz Orxan Səfərov "Böyük dəbilqə" turnirində gümüş medal qazanıb



Azərbaycan cüdoçusu Orxan Səfərov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük dəbilqə" turnirində gümüş medal qazanıb.

Turnirdə 66 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz həlledici görüşdə italiyalı Manuel Lombardoya məğlub olaraq gümüş medalla kifayətlənib.

Yüzədək ölkədən 500-dən çox cüdoçunun mübarizə apardığı turnirə Azərbaycan 15 idmançı ilə qatılıb.

## Ağır atletimiz Elşad Şərifov Avropa birinciliyində bürünc medal qazanıb



Rumıniyanın paytaxtı Buxarestdə yaşı 20 və 23-dək olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyi davam edir.

2020-ci il Tokio Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda 41 ölkədən 488 atlet (206 qadın və 282 kişi) iştirak edir. Medallar uğrunda mübarizədə Azərbaycan yığma komandasının üzvləri də yarışırlar. Oktyabrın 23-də millimizin üzvü Elşad Şərifov körpücük üzərinə çıxıb. O, yaşı 23-dək olan atletlərin 73 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 123 kiloqramı ram etməklə 7-ci yeri tutub. E.Şərifov təkanla qaldırma hərəkətində daha yaxşı çıxış edib. O, 160 kiloqramı qaldıraraq bu hərəkətdə Avropa birinciliyinin bürünc medalına sahib olub.

## Azərbaycan idmançısı uşu üzrə dünya çempionatında bürünc medal qazanıb



Azərbaycan idmançısı Orxan Hətəmov Çinin Şanxay şəhərində keçirilən uşu üzrə XV dünya çempionatında bürünc medal qazanıb.

Mundialda 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Orxan Hətəmov ilk döyüşündə Şri-Lanka idmançısı Laksman Gunasekara Vickramageni məğlub edib. Növbəti mərhələdə qazaxıstanlı Alişer Yessenbayevi üstələyən idmançımız yarımfinala yüksəlib. Yarımfinalda filippinli Russel Diaza məğlub olan O.Hətəmov bürünc medala layiq görülüb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 626
Nüsxə 3950